# Sahibkarlıq fəaliyyətinin təşviqinə dəstək

***Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) "Regional İnkişaf" İctimai Birliyinin 2019-cu il üzrə elan etdiyi "Sosial layihələr" müsabiqəsinin layihələrindən olan "MirvariStore" layihəsi ilə əməkdaşlığa başlayıb.***



Agentliyin təşkilatçılığı ilə Qəbələ şəhərində toxuculuq və tikiş bacarığı olan qadınlar üçün "MirvariStore" layihəsinin təqdimatı keçirilib. Tədbirdə layihə barədə məlumat verilib, Qəbələ və Oğuz rayonlarında toxuculuq və tikiş bacarığı olan və bu sahəyə maraq göstərən, müvafiq istiqamətdə evində işləmək istəyən 25 qadın müəyyənləşdirilib, onlarla lazımi materialların verilməsi və sifarişlərin ötürülməsi mexanizmi barədə müzakirələr aparılıb.

Qeyd edək ki, "MirvariStore" layihəsinin məqsədi regionlarda qadın sahibkarlığının inkişafı, məşğulluğun artırılması, qadınların gəlir əldə etməsinə dəstək göstərilməsi, eləcə də milli naxışların təbliği və "Made in Azerbaijan" brendi ilə əl işlərinin xarici bazarlara çıxarılmasıdır.

**"Qəbələ"**

# Maarifləndirici tədbir keçirilmişdir

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrinə əsasən "Azərbaycan Respublikasında yeni koronovirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyətlər Planı"-na uyğun olaraq Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi turizm və otelçilik üzrə peşə tədris mərkəzi ilə birgə "Sanitariya maarifləndirmə işinin həyata keçirilməsi" mövzusunda tədbir keçirmişdir.***



Tədbirdə rayon mərkəzi xəstəxanasının infeksionist həkimi Nəhayət Süleymanova və ailə sağlamlıq mərkəzinin ailə həkimi Günay Baxışlı iştirak etmişlər.

Mərkəzin direktoru, iqtisad elmləri namizədi Namik Muradov mövzunun son dərəcə aktual olması ııə bağlı profilaktika işlərinin genişləndirilməsinin vacibliyi barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Sonra Nəhayət Süleymanova və Günay Baxışlı çıxış edərək əhali arasında koronovirus xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə sanitariya işlərinin görülməsi vəziyyəti barədə danışmışlar.

Diskusiya qaydasında keçirilən tədbirdə iştirakçıların sualları mütəxəssislər tərəfindən cavablandırılmışdır.

**"Qəbələ"**

# Bayram hədiyyələri təqdim olunub

Rayon uşaq və ailələrə dəstək mərkəzinin əməkdaşları 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə mərkəzin qeydiyyatındakı xüsusi qayğıya ehtiyacı olan tənha qadınların bir qrupu ilə görüş keçirib, onların qayğı və problemləri ilə maraqlanıblar.

Tədbirdə qadınlarımızın milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılması, övladlarımızın milli ruhda tərbiyə olunması, Vətənə məhəbbət ruhunda yetişdirilməsi kimi şərəfli işi öz üzərlərinə götürdükləri və bu işin öhdəsindən layiqincə gəldikləri qeyd olunub.

Çay süfrəsi ətrafında keçən görüşün sonunda qadınlara bayram hədiyyələri təqdim olunub.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Eko klub fəaliyyətə başlayıb

Qəbələ Gənclərin İnkişaf və Karyera Mərkəzində eko klub yaradılıb. Klubun könüllüləri artıq ilk ekoloji layihəni də reallaşdırıblar. Belə ki, layihə çərçivəsində mərkəzin könüllülərinin iştirakı ilə şəhərin ərazisində təmizlik işləri aparılıb.



Layihənin həyata keçirilməsində əsas məqsəd çirklənmiş ərazilərin tullantılardan təmizlənməsi prosesinə gəncləri cəlb etmək, ətraf mühitin mühafizəsinə töhfə verməkdir.

Mərkəz tərəfindən belə layihələrin davamlı olacağı nəzərdə tutulub.

**"Qəbələ"**

# Qəbələdə aparılan arxeoloji tədqiqatlardan danışılıb

***Böyük Britaniyanın Oksford Universitetinin Ertegun House Mərkəzində Cənubi Qafqazda Arxeoloji Tədqiqatlar Forumu təşkil olunub.***

***Tədbirdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik dövr arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin "Qəbələnin Səlbir yaylasında aparılan yeni arxeoloji tədqiqatlar" mövzusunda məruzəsi dinlənilib.***

İnstitutun İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Eminli rəhbərlik etdiyi Antik və İlk Orta əsrlər dövrü üzrə Qəbələ Arxeoloji Ekspedisiyasının son illərdə apardığı tədqiqatların nəticələrindən danışıb. O, Qafqaz Albaniyası, onun paytaxtı olmuş Qəbələ haqqında ətraflı məlumat verib.

Forumda ölkəmizin digər təmsilçisi Birminhem Universitetinin doktorantı Nərmin İsmayılova isə "Azərbaycanda Erkən tunc dövrü yaşayış məskənləri" mövzusunda çıxış edib.




Qeyd edək ki, Oksford Universiteti, Gürcüstanda Akademik Tədqiqatların Dostu Fondu və Cənubi Qafqaz üzrə Amerika Tədqiqatlar İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən forum Cənubi Qafqazda çalışan mütəxəssisləri bir araya gətirmək, cari tədqiqatları və potensial təşəbbüsləri müzakirə etmək məqsədi daşıyıb.

# İstehsal prosesi ilə tanış olublar

***Prezident İlham Əliyevin sərəncamına əsasən 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsi ilə əlaqədar Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin könüllüləri tərəfindən maraqlı layihələr həyata keçirilir. "Könüllülər ili" çərçivəsində mərkəzin könüllüləri "Gilan" Qida Şəhərciyindəki kartof emalı və konserv zavodlarında olub, istehsal prosesi ilə maraqlanıblar.***



Yarımfabrikat kartof, çipsi və sərinləşdirici içkilər istehsal edən emal müəssisələri ilə tanışlıq könüllülər üçün çox faydalı olub.

Onlara məlumat verilib ki, kartof emalı zavodu bazara "Chipsim" və "Kartofresh" brendləri ilə ekoloji cəhətdən təmiz məhsul təqdim edir. İllik istehsal gücü 20 min ton hazır məhsul təşkil edən zavod Böyük Britaniyanın "Heat&Control", Yaponiyanın "İshida", Hollandiyanın "Miedema" avadanlığı ilə təchiz edilib.

Bildirilib ki, müəssisə Cənubi Qafqazın ən inkişaf etmiş zavodlarından biridir. Burada "Jalə", "Bağdan", "Zolotoy Sad", "Aycan" brendləri ilə istehsal olunan məhsullar təkcə daxili bazarda satılmır, eyni zamanda, ABŞ, Yunanıstan və digər ölkələrə də ixrac olunur.

Konserv zavodu istehsal prosesində əsasən, yerli fermerlərdən və əhalidən toplanan kənd təsərrüfatı məhsullarından istifadə edir və bununla da yerli istehsalın inkişafına zəmin yaradır.

Hər iki emal müəssisəsi ilə tanışlıq könüllülərin ürəyincə olub.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**